**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RƏŞAD HÜSEYN OĞLU MURADOV**

# BÜDCƏ PROSESİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

**İxtisas: 5307.01 - "İqtisadi nəzəriyyə"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəetməsi və menecment" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər** AMEA-nın müxbir üzvü,
iqtisad elmləri doktoru, professor
**Əli Xudu oğlu Nuriyev**

**Rəsmi opponentlər** iqtisad elmləri doktoru, professor
**Ümüdvar Qənbər oğlu Əliyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Seyfəddin Sabir oğlu Səməndərov**

**Aparıcı təşkilat** **Bakı Dövlət Universitetinin "İqtisadiyyat və idarəetmə" kafedrası**

Müdafiə 29 aprel 2016-cı il saat $14^{00-}$ da Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu nəzdindəki D.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat 18 mart 2016-cı il tarixində göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının Elmi katibi
iqtisad üzrə fəlsəfə doktoru, dosent **F.Q.Musayeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** Dövlətin maliyyə sisteminin etibarlılığının və şəffaflığının təmin edilməsi büdcə vəsaitlərinin miqdarı ilə yanaşı, büdcə prosesinin səmərəli təşkilindən asılıdır. Bazar iqtisadiyyatı şəraitində büdcə prosesinin idarəolunması sahəsində kifayət qədər təcrübənin olmaması, bəzi hallarda bu prosesin təşkilində olan çatışmazlıqlar büdcə vəsaitlərinin formalaşması və istifadəsinin səmərəliliyinə mənfi təsir edir. Tədqiqatın mövzusunun aktuallığı həm də onunla şərtlənir ki, qlobal maliyyə böhranının davam etdiyi müasir dövrdə bütün dövlətlərdə büdcə prosesinin təkmilləşdirilməsinə dövlət resurslarından istifadənin səmərəliliyinin artırılması, ölkənin ümumi maliyyə sabitliyi, təhlükəsizliyi və davamlı iqtisadi inkişafı üçün şəraitin yaradılması sahəsində irəliyə atılmış addım kimi baxılır. Bu gün dövlətin əlində iqtisadiyyatın idarəetmə aləti kimi büdcələrin formalaşdırılması, onların rolu və əhəmiyyəti ilə bağlı nəzəri və praktiki baxımdan çoxsaylı suallar meydana çıxır ki, onların da vaxtında və rasional qaydada həlli yalnız büdcə münasibətlərinin və büdcə prosesinin yeni iqtisadi şəraitə uyğunlaşdırılmasına deyil, həm də büdcələrin bazar münasibətlərinin inkişafı prosesinin özünə təsirini gücləndirməyə imkan verə bilər. Bu mənada büdcə prosesinin həyata keçirilməsinin nəzəri-metodoloji əsaslarının tədqiqi, yeni konseptual yanaşmaların işlənib hazırlanması və tətbiqi məsələlərinin araşdırılmasına xüsusi zərurət yaranmışdır.

Büdcə prosesinin idarə olunması problemləri ilə bağlı çoxsaylı informasiya mənbələrinin olmasına baxmayaraq bu prosesin rasional təşkili və həyata keçirilməsi sahəsində bir sıra həll olunmamış nəzəri, metodoloji və metodik problemlər hələ də qalmaqdadır. Bura büdcə prosesi sahəsində anlayışların dəqiqləşdirilməsinin zəruriliyi, büdcə planlaşdırılmasının səviyyəsinin yüksəldilməsi, büdcə planlaşdırması subyektlərinin fəaliyyətinin nəticəliliyinin qiymətləndirilməsi üçün meyarların işlənib hazırlanması, büdcənin icrasının təşkilinin təkmilləşdirilməsi, büdcə prosesində ictimai iştirakın və şəffaflığın təmin olunması, büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin qiymətləndirilməsi və s. məsələləri aid etmək olar. Bütün bunlar tədqiqat mövzusunun aktuallığını və seçilməsini şərtləndirmişdir.

**Problemin öyrənilmə səviyyəsi:** Büdcənin formalaşması, büdcə gəlirləri və xərcləri dövlətin funksiyalarının icrasının ali rolu və digər məsələlər bu günə qədər müxtəlif tədqiqatçılar tərəfindən kifayət qədər öyrənilmişdir. Dövlətin funksiyalarının maliyyə təminatının əsasını təşkil edən və onun sosial-iqtisadi inkişafa təsir aləti olan büdcənin və büdcə prosesinin öyrənilməsinə Ş.Blankart, B.Boldırev, C.Byukenen, A.Vildavski, E.Qlovinski, R.Zodi, C.Keyns, V.Nordxauz, İ.Ozerov, P.Samuelson, C.Stiqliz və başqalarının əsərlərində diqqət yetirilmişdir.

Azərbaycanda son illərdə büdcə sistemi, büdcənin formalaşması və istifadəsilə əlaqədar məsələlərinə bir sıra tədqiqatçıların əsərlərində kifayət qədər yer verilmişdir. Bulardan Z.Ə.Səmədzadə, A.A.Nadirov, Ə.X.Nuriyev, Ə.Ə.Ələkbərov, Z.F.Məmmədov, A.F.Musayev, Y.A.Kəlbiyev, M.M.Sadıqov, T.Ə.Paşa, B.A.Xankişiyev və başqalarının tədqiqatlarını qeyd etmək olar.

Müasir büdcə prosesi nəzəriyyəsinə V.Andruşeniko, S.Bukovinski, O.Vasilik, P.Vaxrin, Q.Voloşuk, L.Drobozina, İ.Lunina, Y.Lyaşenko, S.Levoçkin, Ç.Oqon, S.Oqorodnik, V.Oparin, V.Fedorov, S.Yuriy və başqalarının da əhəmiyyətli töhfələri olmuşdur.

Hesab edirik ki, kompleks təhlil əsasında mövcud baxışları, yerli və xarici təcrübəni ümumiləşdirməklə büdcə vəsaitlərindən daha səmərəli istifadədəyə imkan verən büdcə sisteminin formalaşdırılmasının konseptual məsələlərini işləyib hazırlamaq, büdcə prosesinin təkmilləşdirilməsinin əsas istiqamətlərini müəyyən etmək vacibdir. Beləliklə, büdcə prosesinin təkmilləşdirilməsi məsələsinin aktuallığı, elmi və praktiki əhəmiyyəti, kifayət qədər işlənilməməsi onun tədqiqatın mövzusu kimi seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanda büdcə prosesinin təşkilinin nəzəri-metodoloji məsələlərinin kompleks şəkildə öyrənilməsi, onun təkmilləşdirilməsi yollarının müəyyənləşdirilməsi və səmərəliliyinin artırılması ilə bağlı elmi əsaslandırılmış və praktiki əhəmiyyətli təklif və tövsiyyələrin işlənib hazırlanmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı **vəzifələr** qoyulmuş və həll olunmuşdur:

- büdcə prosesinin sosial-iqtisadi mahiyyətinin açıqlanması və bu prosesin təşkilinin xüsusiyyətlərinin və prinsiplərinin müəyyən edilməsi;
- büdcə prosesinin təşkili modellərinin müqaisəli təhlili və sistemləşdirilməsi;
- büdcə prosesinin təşkilinin vacib şərti kimi ictimai iştirak və şəffaflığın təmin olunması yollarının əsaslandırılması;
- Azərbaycanda büdcə sisteminin təşkili prinsiplərinin və büdcə prosesinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi;
- statistik məlumatlar əsasında büdcənin strukturunun təhlili, büdcə siyasəti və büdcə prosesinin qarşılıqlı əlaqələrinin müəyyən edilməsi;

➢ büdcə prosesinin mərhələlərinin təhlili əsasında hakimiyyət qolları arasında qarşılıqlı münasibət formalarının müəyyənləşdirilməsi;

➢ büdcə prosesinin təşkili sahəsindəki problemlərin və çatışmazlıqların aşkara çıxarılması, təkmilləşdirilməsinin perspektiv istiqamətlərinin müəyyənləşdirilməsi;

➢ büdcə planlaşdırılmasında proqram-məqsədli metoddan istifadə sahəsində konkret nəticələrə yönəlmiş büdcələşdirmə metodunun tətbiqi perspektivlərinin müəyənləşdirilməsi;

➢ büdcə prosesinin şəffaflığı və ictimai iştirak prinsiplərinin, forma və reallaşdırılma mexanizmlərinin müəyyələşdirilməsi;

➢ Azərbaycanda büdcə porosesinin nəzəri-metodoloji və metodiki baxımdan təkmilləşdirilməsi sahəsində elmi əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın obyekt və predmeti:** Tədqiqat işinin obekti kimi Azərbaycanın müasir büdcə sistemi seçilmişdir, tədqiqatın predmeti büdcə prosesinin təşkilinin hüquqi reqlamentləşdirilməsi, məzmunu və büdcə prosesinin iştirakçılarının büdcə səlahiyyətlərinin reallaşdırılmasının prinsipləri, büdcə prosesinin iştirakçıları arasında büdcənin tərtibi, baxılması, icrası və yerinə yetirilməsi haqda hesabatın formalaşdırılması ilə bağlı iqtisadi, maliyyə və təşkilati münasibətlər sistemindən ibarətdir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını:** Azərbaycan Respublikasının Konstitusiyası, büdcə sahəsində qanunları və digər normativ hüquqi aktları, ölkə Prezidentinin fərman və sərəncamları, Azərbaycan və xarici ölkə alimlərinin bu sahədəki tədqiqatları, inkişaf etmiş demokratik dövlətlərin bu sahədə təcrübəsini əks etdirən tədqiqatların nəticələri, elmi-praktiki konfransların materialları və bu sahədəki metodiki işləmələr, dövrü mətbuat və internet materialları təşkil etmişdir. Tədqiqat işində iqtisadi təhlil, ümumiləşdirmə, tarixi-məntiqi yanaşma, sistemli təhlil və müqayisə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını:** büdcə və büdcə prosesi məsələləri üzrə elmi nəşrlər, qanunlar və normativ sənədlər, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin, Dövlət Statistika Komitəsinin materialları, dövlət xəzinədarlıq orqanlarının, Hesablama Palatasının hesabatları, elmi-praktiki konfransların materialları və dövlət hakimiyyət orqanlarının internet şəbəkəsindəki rəsmi saytları təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

➢ Azərbaycanda büdcə sisteminin formalaşma qanunauyğunluqları təhlil olunmuş və büdcə prosesinin təşkili xüsusiyyətləri aşkara çıxarılmışdır;

➢ büdcə prosesinin təşkili sahəsində beynəlxalq təcrübə araşdırılmış və Azərbaycanda tətbiqi imkanları göstərilmişdir;

➢ büdcə səlahiyyətlərinə malik orqanların büdcə layihəsinin tərtibi, təsdiqi, icrası və büdcə resurslarının idarə olunması sahəsində istifadə etdiyi iqtisadi mexanizmlərin məzmunu açıqlanmışdır;

➢ büdcə prosesinin mərhələləri, iştirakçıları, onların səlahiyyətləri və maraqları, alətləri, modelləri və digər elementlərinin, habelə büdcə prosesinin təşkilinə və səmərəliliyinə təsir göstərən daxili və xarici amillərin sistemli yanaşma əsasında təsnifatı verilmişdir;

➢ büdcə prosesinin reallaşdırılma mexanizminin büdcə layihəsinin tərtibi, onun icrasına nəzarət və hesabat mərhələlərini birləşdirən təşkilati, institutsional və hüquqi strukturunun xüsusiyyətləri, büdcə prosesinin təşkili ilə bağlı yeni dəyişiklikləri nəzərə almaqla büdcə prosedurlarının mərhələli alqoritmləri və büdcə prosesinin institusional idarəetmə orqanlarının xüsusiyyətləri müəyyələşdirilmişdir;

➢ büdcə sisteminin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi əsasında büdcə prosesinin inkişafına və büdcə modelinin reallaşmasına mane olan başlıca problemlər müəyyənləşdirilmiş və onların əsas səbəbləri araşdırılmışdır;

➢ müasir büdcə prosesinin təşkilinin alternativ istiqamətləri və mexanizmləri araşdırılmış, prinsipləri təhlil olunmuş, büdcələrarası münasibətlərin xarakteri müəyyən edilmiş, hər bir subyektin büdcə prosesində rolunun ciddi müəyyən olunmasının zəruriliyi əsaslandırılmışdır;

➢ müasir dövrdə Azərbaycanda büdcə prosesinin islahatlarının başlıca istiqamətləri müəyyənləşdirilmiş, onun təkmilləşdirilməsi baxımından metodoloji xarakterli təklif və tövsiyyələr işlənib hazırlanmışdır;

➢ "nəticələr üzrə" büdcə prosesi modelinin xüsusiyyətləri açıqlanmış, proqram-məqsədli büdcə planlaşdırması, nəticələrə yönümlü büdcələşdirmənin məzmunu dəqiqləşdirilmiş, onun tətbiqinin zəruriliyi əsaslandırılmış, bu sahədə problemlər aşkar edilmiş və onların həlli yolları məyyənləşdirilmişdir;

➢ büdcə prosesinin şəffaflığının yüksəldilməsinin istiqamətləri, büdcə prosesində ictimai iştirakın şərtləri və vəzifələrini də əhatə edən mexanizmlərin işlənib hazırlanması ilə bağlı təklif və tövsiyyələr işlənib hazırlanmışdır;

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqatın nəticələri büdcə prosesinin iştirakçılarının praktiki fəaliyyətinin təşkilində istifadə oluna bilər. Tədqiqat işində irəli sürülən təkliflərdən bir sıra metodoloji məsələlərin həllində, büdcə sistemi üçün kadrlarının hazır-

lanması ilə bağlı müvafiq kursların tədrisində, habelə elmi-tədqiqat işlərində, tədris prosesində, dərs vəsaitləri və metodiki göstərişlərin hazırlanması işində və s. istifadə oluna bilər. Tədqiqatın nəticələri dövlət hakimiyyət orqanlarının nümayəndələri üçün də faydalı ola bilər.

**İşin aprobasiyası və nəticələrinin tətbiqi.** Dissertasiya işinin əsas müddəaları, işdə irəli sürülmüş təklif və tövsiyələr müxtəlif dövlətlərdə ayrı-ayrı mövzularda keçirilən respublika və beynəlxalq səviyyəli elmi konfranslarda və seminarlarda məruzə edilmiş, bəyənilmiş və çap olunmuşdur, eləcə də əldə edilmiş nəticələr ali məktəblərin uyğun kafedralarında müvafiq fənlərin tədrisi zamanı istifadə edilə bilər. Dissertasiya işinin əsas məzmununu əks etdirən 15 məqalə və tezis (o cümlədən 3-ü xaricdə) dərc olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi:** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 160 səhifə həcmindədir. Dissertasiya işində 19 cədvəl, 9 şəkil verilmişdir. İstifadə edilmiş ədəbiyyat siyahısında Azərbaycan, rus, ingilis dillərində olan 168 ədəbiyyat mənbəyi və internet səhifəsi göstərilmişdir.

## Dissertasiya işinin məzmunu

**Giriş**

**I Fəsil. Bazar iqtisadiyyatı şəraitində büdcə prosesinin nəzəri-metodoloji məsələləri**

1.1. Büdcə sistemi və büdcə prosesi: mahiyyəti və sosial-iqtisadi inkişafda rolu

1.2. Bazar iqtisadiyyatı şəraitində büdcə prosesinin məzmunu, təşkili prinsipləri və modelləri

1.3. İctimai iştirak və şəffaflığın təmin olunması müasir dövrdə büdcə prosesinin təşkilinin vacib şərti kimi

**II Fəsil. Azərbaycan Respublikasında büdcə sistemi və büdcə prosesinin müasir vəziyyətinin təhlili**

2.1. Azərbaycan Respublikasının büdcə sistemi: strukturu və müasir vəziyyəti

2.2. Azərbaycanda büdcə prosesinin təşkili: mərhələləri və başlıca problemləri

**III Fəsil. Azərbaycan Respublikasında büdcə prosesinin təkmilləşdirilməsinin perspektiv istiqamətləri**

3.1. Büdcə prosesi sahəsində islahatların konseptual məsələləri

3.2. Nəticələrə yönümlü büdcələşdirmə metodunun tətbiqi və büdcə planlaşdırmasının təkmilləşdirilməsi perspektivləri

3.3. Büdcə vəsaitlərindən istifadəinin səmərəliliyinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi

**Nəticə**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Dövlət büdcəsinin sosial-iqtisadi mahiyyəti tədqiq edilmiş, büdcə prosesinin təşkili prinsipləri və modelləri təklif olunmuşdur.**

Dövlətin seçdiyi iqtisadi siyasət çərçivəsində həyata keçirilən maliyyə tənzimləmə sistemi müasir cəmiyyətdə iqtisadiyyatın strukturunun formalaşdırılmasında və inkişafında aparıcı, müəyyənləşdirici rol oynayır. Maliyyə mexanizminin başlıca həlqəsini ***dövlət büdcəsi*** təşkil edir. Büdcə vasitəsilə dövlət öz sistemində olan orqanların üzərinə qoyulmuş funksiyaların icrasını təmin edir. Davamlı sosial-iqtisadi inkişafın əsası kimi makroiqtisadi və maliyyə stabilliyinin qorunub saxlanılması, dövlət hakimiyyət orqanlarının öz səlahiyyətlərini səmərəli yerinə yetirməsi üçün şəraitin yaradılması, dövlətin maliyyə sisteminin etibarlılığının və şəffaflığının təmin edilməsi kimi ölkə üçün birinci dərəcəli əhəmiyyətə malik məsələlərin həlli bilavasitə *büdcə prosesinin* səmərəli təşkilindən asılıdır. Büdcə prosesinin təşkili onun iştirakçılarının qarşılıqlı fəaliyyətinin rasional sxeminin seçilməsini, büdcənin tərtibi və icrası metodlarının təkmilləşdirilməsini və büdcə nəzarətinin həyata keçirilməsini tələb edir.

İqtisadi ədəbiyyatlarda büdcənin mahiyyəti ilə bağlı üç müxtəlif baxışa rast gəlinir: *birincisi* büdcəni öbyektiv kateqoriya kimi izah edir, *ikincisi* büdcəni dövlətin maliyyə planının əsası kimi müəyyənləşdirir, *üçüncüsü* isə büdcəni həm obyektiv iqtisadi kateqoriya kimi, həm də dövlətin maliyyə planının əsası kimi qəbul edir. Müasir ədəbiyyatda üçüncü baxışa daha çox üstünlük verilir. Beləliklə dövlət büdcəsi dedikdə dövlətin ölkə təsərrüfatının, sosial-mədəni tədbirlərin, müdafiə və dövlət idarəetməsinin ehtiyaclarının maliyyələşdirilməsi üçün milli gəlirin (ümumdaxili məhsulun) bölüşdürülməsi sahəsində pul vəsaitləri fondunun yaradılması və istifadəsi formasıdır. Dövlət büdcəsi maliyyə sisteminin aparıcı həlqəsini təşkil edir.

İqtisadi kateqoriya kimi büdcənin mahiyyəti bölgü və nəzarət funksiyalarının köməyi ilə reallaşdırılır. Bölgü funksiyasının köməyi ilə pul vəsaitlərinin dövlətin əlində cəmləşdirilməsi, bölgüsü, yenidən bölgüsü, sahələr, ərazilər arası, büdcə sisteminin müxtəlif səviyyələri arasında ictimai tələbatların ödənilməsi üçün istifadəsi həyata keçirilir. İctimai istehsalın həm fiziki, həm də hüquqi şəxslərdən ibarət bütün iştirakçıları büdcə ilə münasibətlərdə olur ki, bu da bölgü funksiyasının fəaliyyət sahəsini müəyyənləşdirir.

Büdcənin nəzarət funksiyasının köməyi ilə maliyyə resurslarının müxtəlif təsərrüfat subyektlərindən dövlətin sərəncamına necə daxil olduğu, həmçinin mərkəzləşdirilmiş resursların dövlətin tələbatlarına uyğun gəlib gəlmədiyini müəyyənləşdirmək olur. Bu funksiyanın əsasını büdcə vəsaitlərinin hərəkəti təşkil edir ki, bu da öz əksini uyğun büdcə daxilolmaları və xərc təyinatları göstəricilərində tapır.

Büdcə dövlətin vəzifə və funksiyalarının məqsədyönlü və səmərəli icrasının maliyyə təminatı üçün nəzərdə tutulmuşdur. Dövlət büdcəsi siyasi hakimiyyətə iqtisadiyyata real təsir etməyə, onun struktur dəyişikliklərini maliyyələşdirilməyə, iqtisadiyyatın prioritet sektorlarının inkişafını stimullaşdırmağa, əhalinin ən az müdafiə olunan təbəqələrininə sosial yardımlarla təmin olunmasına imkan verir.

Bütövlükdə, düzgün yanaşıldıqda büdcə sadəcə iqtisadiyyatın dövlət tənzimlənməsi aləti kimi çıxış etmir, həm də iqtisadiyyatın və sosial sferanın artımına, elmi-texniki tərəqqinin templərinin sürətləndirilməsnə, ictimai istehsalın maddi-texniki bazasının yeniləşdirilməsinə və təkmilləşdirilməsinə real təsir edə bilir.

Dövlət büdcəsi mürəkkəb hadisə olub bilavasitə iqtisadiyyatla, maliyyə ilə, hüquqla, siyasətlə, sosiologiya ilə kəsilməz şəkildə bağlıdır. Büdcənin belə çoxcəhətliliyi dövlətin büdcə quruluşunun araşdırılmasının və büdcə anlayışının özünün müəyyənləşdirilməsinin çətinliyini şərtləndirir.

Büdcə prosesi çox mürəkkəb prosedur olub özündə büdcə layihəsinin tərtibi, baxılması, təsdiqi, icrası və icraya nəzarət məsələlərini birləşdirir. Büdcə prosesinin əsas vəzifələrindən biri büdcə münasibətlərinin iştirakçılarının fəaliyyətinə təsir göstərən amillərin büdcənin məzmununa təsirinin idarəolunanlığını, proqnozlaşdırılanlığını və nəticədə büdcə gəlirlərinin və xərclərinin dövlətin maliyyə siyasətinə uyğunluğunu təmin etməkdən ibarətdir.

Büdcə prosesi sadəcə mürəkkəb deyil, həm də olduqca uzun bir prosesdir. Büdcə posesinin uzunluğu büdcə dövrü (tsikli) ilə müəyyən olunur. Büdcə dövrü (tsikli) büdcə prosesinin bütün mərhələlərini həyata keçirmək üçün lazım olan müddəti əhatə edir. Büdcə dövrü büdcə layihəsinin hazırlanmasına başlanılması haqda qərarın qəbul oluduğu vaxtdan büdcənin icrası haqqında hesabatın qəbul olunması haqda qərarın qəbuluna qədərki dövrü əhatə edir. Büdcənin tərtibi və baxılması bir ilə qədər, icrası bir il (1 yanvardan 31 dekabra qədər), büdcənin icrası haqqında hesabatın tərtibi və təsdiqi yarım ilə qədər davam edir.

Büdcə prosesi bu işin mərkəzdə və yerlərdə təşkilinin konkret formaları haqqında, büdcənin icrası funksiyasının ölkənin bütün ərazisində dövlət hakimiyyət orqanları, təsərrüfat idarəçiliyi, plan-maliyyə orqanları, birliklər, müəssisələr, büdcə təşkilatları arasında paylaşdırılması haqqında təsəvvür yaradan normativ-hüquqi və təşkilati əsasların işlənib hazırlanmasını tələb edir.

Təcrübə göstərir ki, müxtəlif dövlətlərdə büdcə prosesinin strukturu və mərhələləri arasında prinsipial əhəmiyyətli fərqlər yoxdur. Lakin bu mərhələlərdə tətbiq olunan texnoloji üsullar şübhəsiz ki, müxtəlifdir və hətta regionlara görə fərqlənə bilir. Metodoloji baxımdan büdcə prosesinin təşkilinin iki alternativ modelini fərqləndimək olar: ənənəvi ***smeta büdcələşdirməsi*** və ***nəticələrə yönümlü büdcələşdirmə***.

Təhlillər göstərir ki, müasir şəraitdə inkişaf etmiş dövlətlərin əksəriyyətində büdcə prosesi nəticələrə yönümlüdür və ona dövlətin maliyyə resurslarının idarəolunmasının səmərəliliyinin yüksəldilməsi aləti kimi baxılır. Xarici ölkələrin bu sahədəki təcrübəsini nəzərə alaraq nəticələrə yönümlü büdcələşdirmə konsepsiyasının əsas müddəalarını aşağıdakı kimi ifadə etmək olar:

➢ Dövlətin maliyyə təhlükəsizliyinin təmin olunması üçün maliyyə resurslarının planlaşdırılması nəticələrə yönümlü büdcələşdirmə vasitəsi ilə həyata keçirilməlidir. Burada gəlir və xərclərin nəticəli idarəolunması yolu ilə dövlətin etibarlı və təhlükəsiz fəaliyyəti təmin olunur, onun məqsədləri yalnız ayrı-ayrı təşkilatlar üçün fəaliyyət istiqamətlərini deyil, həm də dövlət idarəetmə sisteminin ümumi məqsədlərini müəyyənləşdirir və bütövlükdə ölkədə əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə yönəlmiş olur;

➢ Nəticələrə yönümlü büdcənin maliyyə resurslarının planlaşdırılması zamanı məqsədlərin aşağıdakı ierarxiyaya uyğun reallaşdırılması nəzərdə tutulur: dövlətin missiyası, maliyyə təhlükəsizliyinin strateji məqsəd və vəzifələri, cari məqsədlər, operativ məqsədlər. Dövlətin fəaliyyətinin məqsədlər sistemi əhalinin tələbatlar kompleksinin reallaşdırılmasına yönəldilir;

➢ Nəticələrə yönümlülük büdcənin həm xərclər, həm də gəlirlər hissəsinə tətbiq olunur, büdcə sisteminin bütün səviyyələrində gəlirlərin və xərclərin balanslaşdırılması təmin edilir;

➢ Dövlət büdcəsi ilə yerli büdcələr arasındakı münasibətlərdə dəyişikliklərin həyata keçirilməsi əsaslandırılmış proqramlar və maliyyə yardımı mexanizminin tətbiqi hesabına olur və onların səmərəliliyinin artırılmasını nəzərdə tutur;

➢ Dövlət büdcəsindən göstərilən yardımların səmərəliliyini artırmaq üçün bu yardımların verilməsini qarşıya qoyulmuş məqsədlərə nail olunmanın zəruriliyi ilə əlaqələndirmək tələb olunur;

➢ İqtisadi subyektlərin maliyyə vəziyyətinin qiymətləndirilməsi, onların xərc öhdəliklərini yerinə yetirməsi vəziyyətinin monitorinqi vasitəsilə həyata keçirilir.

➢ Xərc əməliyyatları üzrə məlumatların açıqlığı və hamı üçün əlçatan olması;

➢ Büdcə prosesinin şəffaflığının, qərarların qəbul olunmasında ictimai iştirakın təmin olunması;

➢ Maliyyə orqanlarının nəticələrə yönümlü büdcə ideologiyasına uyğun kadr təminatının yaradılması;

➢ Büdcə prosesinin səmərəli reallaşdırılması mövqeyindən motivləşdirilməsi və stimullaşdırılması.

Nəticələrə yönümlü büdcə konsepsiyasını aşağıdakı məntiqi sxem şəklində göstərmək olar:

Sxem 1

Nəticələrə yönümlü büdcələşdirmə konsepsiyasının məntiqi sxemi




Büdcə prosesinin metodoloji baxımdan ən vacib məsələlərindən biri də **büdcə balanslaşdırılmasından** ibarətdir. Dövlət büdcəsi gəlir və xərclərin nisbətindən asılı olaraq balanslaşdırılmış və balanslaşdırılmamış (defisit və profist) vəziyyətdə ola bilər. Büdcənin balanslaşdırılması dövlət gəlirləri (ilk növbədə vergi daxilolmaları) ilə dövlətin bütün mühüm funksiyalarının (sosial, tənzimləmə, idarəetmə, müdafiə, investisiya, xarici iqtisadi fəaliyyət) səmərəli reallaşdırılmasının təmin edilməsi üçün xərcləri arasındakı qarşılıqlı əlaqəni və səmərəli nisbətləri əks etdirir.

**2. Büdcə prosesinin təşkilində ictimai iştirakın və şəffaflığın mühüm aspektləri göstərilmişdir.**

Büdcə prosesinin geniş **ictimai iştiraka** əsaslanması və daha şəffaf olması büdcə reallığının mühüm şərtlərindən biri olub, büdcə üzrə qəbul olunan qərarların və onların icrasının keyfiyyətinə nəzarət imkanlarını genişləndirir. Bu da hakimiyyət orqanlarının büdcənin hazırlanması və icrasına görə məsuliyyətini artırır, ictimai resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsinə səbəb olur.

Büdcə prosesində ictimai iştirak vətəndaş cəmiyyəti ilə hakimiyyət orqanlarının fasiləsiz qarşılıqlı fəaliyyəti prosesidir ki, onun da əsasında vətəndaşların, sosial qrupların qanuni hüquqlarının və maraqlarının büdcədə reallaşdırılması məqsədi ilə müzakirələrin aparılması durur.

"İctimai iştirak" konsepsiyası inkişaf məqsədlərini əhalinin tələbatının ödənilməsinə yönəldir. Burada nəzərdə tutulur ki, vətəndaşlar öz problemlərini daha yaxşı bilirlər, onlar bu problemləri formalaşdıra və onların həlli yollarını təklif edə bilərlər, cəmiyyətdə sosial-iqtisadi inkişafın nəticələrinin sadəcə istehlakçıları deyil, həm də bu inkişafın aktiv iştirakçıları ola bilərlər.

Büdcə prosesində ictimai iştirakın reallaşdırılmasının əsas şərti hakimiyyətin fəaliyyətinin vətəndaşlar üçün şəffaf olmasından ibarətdir. Şəffaflıq dövlət sektorunda düşünülmüş iqtisadi siyasətin qəbul olunmasının zəruri şərtidir. Sosial-iqtisadi siyasətin başlıca maliyyə aləti kimi büdcənin şəffaflığı hökumətin qərarlarının açıqlığının əsas şərtlərindən biridir. Ona görə də bir çox ölkələrdə büdcə islahatlarının keçirilməsi zamanı büdcə prosesinin şəffaflığının təmin olunması məsələsinə xüsusi diqqət yetirilir.

Bu gün şəffaflığın inkişafı sahəsində təşəbbüslərin üç əsas subyektini fərqləndirmək olar: beynəlxalq maliyyə institutları (məqsədi – maliyyə şəffaflığı); milli hökumətlər (məqsədi –islahatların gedişində şəffaflığın artırılması və əhalinin daha geniş məlumatlandırılması); vətəndaş

cəmiyyətinin institutları (məqsədi – şəffaflığın artırılması və ictimai iştirakın aktivləşdirilməsi).

Büdcə prosesinin şəffaflığı və burada ictimaiyyətin iştirakı yalnız büdcə sferasında qəbul olunan qərarların səmərəliliyinin artırılmasının, hakimiyyətin ictimaiyyət üçün daha da açıq olmasının, büdcə vəsaitlərinin daha əsaslandırılmış şəkildə xərclənməsi hesabına sosial siyasətin yaxşılaşdırılmasının deyil, həm də büdcə prosesində korrupsiyaya qarşı mübarizənin ən vacib şərtdlərdən biridir. Büdcə prosesinin şəffaflığının və ictimai iştirakın təmin olunması üçün sosial texnologiyalardan istifadə oluna bilər ki, bunlar da müstəqil mütəxəssislərə və qeyri-kommersiya təşkilatlarına büdcə prosesində iştirak etməkdə onun səmərəliliyini artırmağa imkan verə bilər.

**3. Azərbaycan Respublikasının büdcə sisteminin strukturu və müasir vəziyyətinin təhlili əsaslandırılmışdır.**

Azərbaycanda XX əsrin 90-cı illərindən başlayaraq müxtəlif sahələrdə reallaşdırılan islahatlar, bazar iqtisadiyyatına keçid dövlət maliyyəsi sferasında, ilk növbədə büdcə sistemində ciddi dəyişikliklərə gətirib çıxardı. Büdcə prosesi ilə bağlı normativ-hüquqi sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması başlıca vəzifələrədən birinə çevrildi.

2002-ci ildə qəbul olunan "Büdcə sistemi haqqında" qanun Azərbaycanda büdcə sisteminin inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu və büdcə qanunvericiliyinin ümumi prinsiplərini, ölkənin büdcə sisteminin fəaliyyətinin, büdcə prosesinin hüquqi əsaslarını müəyyənləşdirmiş oldu.

Ötən dövr ərzində qanuna bəzi dəyişikliklər və əlavələr olunmuşdur ki, bunlar da büdcəyə əlavə gəlirlərin cəlb edilməsi, xərclərin idarə olunmasının şəffaflığı, dövlət büdcəsinin qalığının idarə edilməsi (idarəetməyə verilməsi), birdəfəlik təyinatlı xərclər üzrə yaranmış qənaətdən səmərəli istifadə, beynəlxalq standartlara cavab verən mühasibat uçotunun qaydalarının tətbiqi, büdcənin kassa icrasının xəzinədarlıq vasitəsi ilə reallaşdırılması üçün hüquqi baza yaratmışdır.

Sonrakı illərdə büdcə kəsirinin maliyyələşməsində bank kreditlərindən (inflyasiya yaradan mənbələrdən) imtina edilmiş, ÜDM-də büdcə kəsirinin xüsusi çəkisi daim tənzimlənmiş, büdcənin tərkibində əsaslı xərclərin xüsusi çəkisinin artım sürəti cari xərclərin artım sürətini üstələmişdir. Büdcə xərclərinin proqnozlaşdırılmasında konkret proqramlar və tədbirlərə üstünlük verilmişdir ki, bu da onun icrası prosesində dövlət proqramlarında müəyyən olunmuş məqsədlərin yerinə yetirilməsi üzərində nəzarətin gücləndirilməsinə imkan vermişdir.

Əsaslı vəsait qoyuluşlarının təyinatı üzrə və səmərəli istifadəsinə nəzarətin gücləndirməsi, dövlətin investisiya siyasəti və müvafiq proqramların düzgün əlaqələndirilməsi, bu vəsaitlərin ilk növbədə qeyri-neft sektorunun stimullaşdırılmasına və ixrac potensialının gücləndirilməsinə, infrastruktur sahələrinin və regionların inkişafını özündə birləşdirən layihələrə yönəldilməsinə üstünlük verilməsi sahəsində ciddi uğurlar qazanılmışdır.

Azərbaycanda dövlət büdcəsinin gəlir və xərclərin idarə olunmasına diqqət artırılmışdır. Bütün səviyyə büdcələrinin tərtibi, icrası və göstəricilərinin müqaisəolunanlığını təmin etmək üçün vahid büdcə təsnifatından istifadə olunur. **Büdcə təsnifatı** – bütün səviyyə büdcələrinin gəlir və xərclərinin qruplaşdırılmasından və təsnifat obyektlərinə qrup kodlarının mənimsədilməsindən ibarətdir. Büdcə təsnifatı çox mühüm təşkilati və hüquqi əhəmiyyətə malikdir. Büdcə təsnifatından istifadə bir tərəfdən, dövlət orqanlarının büdcənin formalaşması və icrası sahəsindəki işinin dəqiq təşkilinə imkan verir; büdcə vəsaitlərinin vaxtında və tam həcmdə daxil olmasına və onların təyinatı üzrə istifadəsinə nəzarəti sadələşdirir; büdcələrin icmal büdcədə birləşdirilməsinə şərait yaradır; iqtisadi və statistik təhlilərin aparılmasına imkan verir, ayrılmış maliyyə resurslarının ünvanlılığını təmin edir və s. Digər tərəfdən büdcə prosesinin əsasında duran hüquqi akt olduğu üçün büdcə təsnifatında büdcənin hüquqi təşkili ifadə olunur.

Dünya praktikasında istifadə edilən büdcə təsnifatının tərkibi ümumi şəkildə aşağıdakı sxemdəki kimi verilə bilər:

Sxem 2

Büdcə təsnifatının tərkibi



Dissertasiyanın ikinci fəslində dövlət büdcəsinin gəlirləri mənbələr və xərcləri maddələr üzrə ətraflı təhlil olunmuş, bunlarda baş verən dəyişikliklər aşkara çıxarılmış və qiymətləndirilmişdir.

Azərbaycan iqtisadiyyatının son illərdəki sürətli artımı dövlətin maliyyə imkanlarının dəfələrlə atmasına gətirib çıxarmışdır. Bunu iqtisadiyyatın və dövlət büdcəsinin gəlir və xərclərinin dinamikasını əks etdirən aşağıdakı cədvəldən görmək olar:

Cədvəl 1

2005-2014-cü illər üçün Azərbaycan Respublikasının dövlət büdcəsinin əsas göstəriciləri (mlyn.manat)

| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|
| **Gəlirlər** | 2055,2 | 11403 | 15700,7 | 17281,5 | 19496,3 | 18400,6 |
| ÜDM | 12522,5 | 42465,0 | 52082,0 | 54743,7 | 58182,0 | 58977,8 |
| ÜDM-ə nisbətən %-lə | 16,4 | 26,9 | 30,1 | 31,6 | 33,8 | 31,2 |
| Vergilər Nazirliyi | 1427,5 | 4292,8 | 5475,1 | 6025,4 | 6663,6 | 7113,6 |
| Büdcə gəlir-də payı % | 69,5 | 37,6 | 34,9 | 34,9 | 34,2 | 38,7 |
| Digər gəlirlər, | 627,7 | 7110,2 | 10225,6 | 11256,1 | 12832,7 | 11287,0 |
| Büdcə gəlir-də payı % | 30,5 | 62,4 | 65,1 | 65,1 | 65,8 | 61,3 |
| *o cümlədən,* DNF-dən transfert | 150 | 5915 | 9000 | 9905 | 11350,0 | 9337,0 |
| Büdcə gəlirlərində payı % | 7,3 | 51,9 | 57,3 | 57,3 | 58,2 | 50,7 |
| **Xərclər** | 2140,7 | 11765,9 | 15397,5 | 17416,5 | 19143,5 | 18709,0 |
| ÜDM-ə nisbətən %-lə | 17,1 | 27,7 | 29,6 | 31,8 | 33,2 | 31,7 |
| Dövlət kapital qoyuluşu | 159,9 | 4132,4 | 5851,6 | 5774,1 | 6913,8 | 5258,5 |
| ÜDM-ə nisbətən %-lə | 1,3 | 9,7 | 11,2 | 10,5 | 12,0 | 8,9 |
| Büdcə xərc-də payı % | 7,5 | 35,1 | 38,0 | 32,7 | 36,1 | 28,1 |
| **Defisit (-), Profisit (+)** | -85,5 | -362,9 | 303,2 | -135,0 | 352,8 | -308,4 |
| ÜDM-ə nisbətən %-lə | -0,7 | -0,9 | 0,6 | -0,2 | 0,6 | -0,5 |

**Qeyd:** Cədvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Təhlil göstərir ki, 2005-2014-cü illərdə ÜDM-in real ifadədə 2,3 dəfə, sənaye məhsulu istehsalının 1,9 dəfə, kənd təsərrüfatının 1,3 dəfə, əsas kapitala investisiyaların 2,9 dəfə, informasiya və rabitənin 4,3 dəfə, ticarətin 2,4 dəfə artması dövlət büdcəsinin gəlirlərinin artmasına da birbaşa təsir göstərmiş, bununla yanaşı dövlət büdcəsinin gəlirlərində artım daha çox müşahidə edilmişdir. Eyni zamanda dövlət büdcəsinin gəlirlərində bir çox mütərəqqi dəyişikliklər baş vermiş, büdcənin ümumi gəlirləri və ayrı-ayrı mənbələrdən daxil olan gəlirlər real sektorun inkişafını qabaqlamışdır.

2005-2014-cü illərdə büdcə gəlirlərinin strukturunda müsbət dəyişikliklər baş vermişdir. Belə ki, neft fondundan daxil olan transfertlər nəzərə alınmazsa 2005-ci illə müqayisədə hüquqi şəxslərin mənfəət vergisinin xüsusi çəkisi 18,7 %-dən 2013-cü ildə 29,2 %-ə, əlavə dəyər vergisi 31,5 %-dən 33,3 %-ə, sadələşdirilmiş vergi isə 1,0 %-dən 1,4 %-ə yüksəlmişdir. Bununla yanaşı, digər vergilərin daha çox artımı səbəbindən xüsusi çəkilərinin azalması müşahidə olunan daxilolmaların dəyər ifadəsində həcmi artmışdır. Belə ki, fiziki şəxslərin gəlir vergisi üzrə gəlirlər müqayisə olunan dövrdə 2,7 dəfə, hüquqi şəxslərin əmlak vergisi 3,1 dəfə, mədən vergisi 2,2 dəfə, digər vergilər 3,0 dəfə artmışdır.

Gəlir növlərinin dövlət büdcəsindəki payının dinamikasının aşağıdakı cədvəldən görmək olar:

Cədvəl 2

2005-2014-cü illər üzrə gəlir növlərinin dövlət büdcəsinin gəlirlərindəki payının dinamikası (%-lə)

| **İllər** | **2005** | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|---|
| **Gəlirlər** | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Fiziki şəxslərin gəlir vergisi | 15,4 | 5,2 | 4,5 | 4,7 | 4,4 | 5,3 |
| Hüquqi şəxslərin mənfəət vergisi | 17,3 | 12,5 | 13,6 | 13,0 | 12,2 | 12,5 |
| Əlavə dəyər vergisi | 29,2 | 18,3 | 14,2 | 13,7 | 13,9 | 17,0 |
| Aksiz | 6,9 | 4,5 | 3,0 | 3,1 | 3,0 | 4,3 |
| Hüquqi şəxslərin əmlak vergisi | 2,0 | 0,9 | 0,7 | 0,6 | 0,6 | 0,8 |
| Hüquqi şəxslərin torpaq vergisi | 0,7 | 0,3 | 0,2 | 0,2 | 0,2 | 0,2 |
| Yol vergisi | 0,5 | 0,2 | 0,3 | 0,2 | 0,2 | 0,2 |
| Mədən vergisi | 2,6 | 1,1 | 0,8 | 0,7 | 0,6 | 0,6 |
| Sadələşdirilmiş vergi | 0,9 | 0,6 | 0,6 | 0,6 | 0,6 | 0,8 |
| Gömrük rüsumları | 4,9 | 1,9 | 1,5 | 1,4 | 1,5 | 2,0 |
| Dövlət rüsumu | 1,7 | 0,8 | 0,7 | 0,6 | 0,6 | 0,6 |
| DNF-dən daxilolmalar | 7,3 | 51,9 | 57,3 | 58,1 | 58,2 | 50,8 |
| Digər gəlirlər | 10,5 | 1,8 | 2,5 | 2,9 | 3,8 | 4,9 |

**Qeyd:** Cədvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Müxtəlif büdcə xərclərinin əhəmiyyətini və rolunu aydınlaşdırmaq üçün adətən onları müəyyən əlamətlərə görə təsifləşdirirlər: təkrar istehlahdakı roluna görə, ictimai təyinatına görə, istehsal sahələrinə görə, məqsədli təyinat fəaliyyəti növlərinə görə. Dövlət büdcəsinin xərclərini ümumi şəkildə təkrar istesaldakı roluna və funksional təyinatına görə aşağıdakı sxem 2-dəki kimi təsnifləşdirmək olar:

Bu gün dövlətin maliyyələşdirdiyi xərc növlərinə görə büdcədən ayrılan vəsaitlərin məqsədli təyinatı hələlik saxlanılır. Məsələn xalq təsərrüfatı

xərclərinin tərkibində kapital qoyuluşlarına, dotasiyalara, əməliyyat xərclərinə və s.; qeyri-istehsal sferanın təşkilatları və idarələri üzrə əmək haqqına, əsaslı təmirə və s. çəkilən xərclər ayrıca qeyd olunur. Xərclərin məqsədli təyinatına görə təsnifatı büdcə vəsaitlərinin istifadəsinə nəzarət üçün zəruri baza yaradır.

Sxem 3

Büdcə xərclərinin təkrar istesaldakı roluna və funksional təyinatına görə təsnifatı




2005-2014-cü illərdə dövlət büdcəsinin gəlirləri kimi xərcləri də həm ümumilikdə, həm də ayrı-ayrı xərc maddələri üzrə sürətlə artmışdır. Başlıcası isə xərclərin strukturu dəyişmiş, hazırki dövrün strateji vazifələrinə uyğun olaraq bir çox xərc maddələrinin xüsusi çəkisi artmış, bəziləri aşağı düşmüşdür.

Məsələn, 2005-ci illə müqayisədə 2014-cü ildə ümumi dövlət xidmətlərinə çəkilən xərclərin büdcə xərclərindəki payı - 7,9%-dan 7,6%-ə, müdafiə xərclərinin payı - 13,4%-dən 8,1 %-ə, təhsil - 17,4%-dən 8,3%-ə, səhiyyə - 5,4%-dən – 3,6%-ə qədər azalmışdır. Bunun başlıca səbəbi 2006-cı ildən dövlət büdcəsinin investisiya xərclərinin sürətli artımı olmuşdur. Əgər investisiya xərclərinin büdcə xərclərindəki payı 2005-ci ildə 7,5% təşkil edirdisə, 2006-cı ildə 23,2%, 2007-cı ildə 31,3%, 2008-cı ildə 39,7%, 2009-cu ildə 33,8%, 2010-cı ildə 35,1%, 2011-ci ildə 38,0%, 2012-ci ildə 33,1%, 2013-cü ildə 36,1%, 2014-cü ildə isə 28,1% həcmində olmuşdur.

Xərc istiqamətlərinin dövlət büdcəsindəki payının dinamikasını aşağıdakı cədvəldən görmək olar:

Cədvəl 3

2005-2014-cü illərdə xərc istiqamətlərinin dövlət büdcəsindəki payı (%-lə)

| | **2005** | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|---|
| **Cəmi xərclər** | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Ümumi dövlət xidmətləri | 7,9 | 6,8 | 7,0 | 5,9 | 8,5 | 7,6 |
| *- qanunvericilik və icra hakimiyyəti, bələdiyyə orqanlarının saxlanılması* | *5,8* | *2,6* | *1,8* | *2,0* | *1,8* | *2,4* |
| *- elm xərcləri* | *1,3* | *0,8* | *0,7* | *0,7* | *0,6* | *0,7* |
| *- yerli (bələdiyyə) büdcələrə verilən dotasiya* | *0,1* | *0,0* | *0,0* | *0,0* | *0,0* | *0,0* |
| Müdafiə | 13,4 | 10,1 | 8,7 | 8,0 | 7,8 | 8,1 |
| Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 9,6 | 5,7 | 4,6 | 5,3 | 5,5 | 5,9 |
| Təhsil | 17,4 | 10,0 | 8,2 | 8,3 | 7,5 | 8,3 |
| Səhiyyə | 5,4 | 3,7 | 3,2 | 3,5 | 3,2 | 3,6 |
| Sosial müdafiə və sosial təminat | 14,2 | 9,5 | 9,7 | 10,2 | 9,2 | 10,5 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər | 2,4 | 1,4 | 1,2 | 1,4 | 1,4 | 1,6 |
| Mənzil-kommunal təsərrüfatı | 1,9 | 1,7 | 2,0 | 2,5 | 2,1 | 2,2 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi | 4,5 | 3,2 | 2,9 | 2,7 | 2,5 | 2,7 |
| Sənaye, tikinti və faydalı qazıntılar | 7,6 | 35,2 | 38,1 | 32,2 | 36,2 | 33,6 |
| *- dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri)* | *7,5* | *35,1* | *38,0* | *33,1* | *36,1* | *28,1* |
| Nəqliyyat və rabitə | 4,5 | 0,5 | 0,4 | 0,5 | 0,6 | 0,5 |
| İqtisadi fəaliyyət | 2,3 | 1,0 | 0,8 | 1,1 | 1,4 | 1,6 |
| Əsas bölmələrə aid edilməyən xidmətlər | 7,7 | 11,3 | 13,1 | 17,4 | 14,0 | 13,8 |
| *- ehtiyat fondları* | *1,3* | *5,2* | *2,8* | *5,7* | *3,8* | *3,7* |

**Qeyd:** Cədvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Yuxarıdakı təhlillər göstərir ki, reallaşdırılan uğurlu strategiya respublikamızı yeni inkişaf mərhələsinə gətirib çıxarmış, aparılan məqsədyönlü iqtisadi siyasət müsbət nəticələrlə müşahidə olunmuş, büdcənin gəlir və xərclərinin əhəmiyyətli dərəcədə artımı həyata keçirilən islahatların ildən-ilə genişlənməsinə, ölkəmizdə bazar iqtisadiyyatının təşəkkül tapmasına, investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsinə, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılmasına, əhalinin rifah halının yaxşılaşmasına imkan vermişdir.

**4. Azərbaycanda büdcə prosesinin təşkili prinsipləri təklif olunmuşdur.**

Azərbaycan Respublikasının dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir. Büdcə prosesi olduqca mürəkkəb prosedur olub büdcənin layihəsinin tərtibi, baxılması və büdcənin təsdiqi, onun icrası və icraya nəzarət mərhələlərindən ibarətdir. Bu proses büdcə prosesinin başlanğıc mərhələsi büdcənın layihəsinin işlənib hazırlanmasıdır. Bilavasitə büdcə layihəsinin hazırlanması da iki alt mərhələni özündə birləşdirir:

- gəlir və xərclərin funksional təsnifatına uyğun ilkin layihənin tərtibi. Bu layihə tanışlıq üçün aidiyyəti orqanlara göndərilir.

- büdcə təsnifatının bütün bölmələri üzrə yekun layihənin tərtibi. Bu layihə əlavə sənədlərlə birlikdə AR NK-nə təqdim edilir.

Büdcə prosesinin ikinci mərhələsi Milli Məclisdə büdcə layihəsinə baxılması və büdcənin təsdiqindən ibarətdir. Büdcənin icrası mərhələsinin məqsədi təsdiq olunmuş büdcə çərçivəsində gəlirlərin hər bir mənbə üzrə vaxtında və tam həcmdə daxilolmasını, həmçinin maliyyə ili ərzində büdcədə müəyyənləşdirilmiş məbləğ çərçivəsində xərclərin maliyyələşdirilməsini təmin etməkdir. Dövlət büdcəsinin icrası AR-nin mərkəzi və yerli icra hakimiyyəti orqanları, onların tabeliyindəki təşkilatlar tərəfindən dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilir. Büdcə prosesinin mühüm tərkib hissəsi bütün səviyyə büdcələrinin icrasına nəzarətdən ibrətdir. Büdcənin icrasına kənar dövlət maliyyə nəzarətini Milli Məclisin Hesablama Palatası, daxili nəzarəti isə Maliyyə Nazirliyi (nazirliyin Dövlət Xəzinədarlığı Agentliyi, Dövlət Maliyyə Nəzarəti Xidməti) həyata keçirir. AR NK-nin 2004-cü il 24 may tarixli 75-№-li Qərari ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası qaydaları" əsasında yerinə yetirilir.

Aşkar müsbət cəhətlərin olmasına baxmayaraq büdcə prosesinin əsaslı islahatlarına və metodologiyasının təkmilləşdirilməsinə ehtiyac duyulur. Büdcə qanunvericiliyndəki dəyişikliklər və istifadə olunan metodiki alətlər hələlik büdcə vəsaitlərinin idarəolunması prosesinin səmərəliliyini tam təmin etməyə imkan vermir. Mövcud normativ baza büdcə prosesinin təkmilləşdirilməsinin aktual problemlərinin həllinə kifayət qədər uyğunlaşdırılmamışdır.

Hələlik Azərbaycanda büdcə xərclərinin orta müddətli planlaşdırılması və nəticəliliyinin təmin olunması mexanizmlərinin büdcə prosesi ilə əlaqələndirilməsi tam həyata keçirilə bilməmişdir ki, bu da özünü aşağıdakılarda biruzə verir: büdcə xərclərinin əsasən bir il üçün planlaşdırılması; büdcə vəsaitlərinin planlaşdırılmasının əsasən ötən illərdəki maliyyələşdirmələrinin inteksləşdirilməsi əsasında aparılması; maliyyələşdirmə istiqamətlərinin və tədbirlərinin dövlət siyasətinin prioritetlərinə uyğun seçilməsi üçün dəqiq meyarların və prosedurların olmaması; büdcə vəsaitlərindən istifadənin məqsəd və son nəticələrinin dəqiq ifadə olunmaması, həmçinin büdcə vəsaitlərinin istifadəçilərinin qiymətləndirilməsi üçün meyarların olmaması; büdcənin formalaşdırılması və icrası prosesində büdcə sərəncamçılarının səlahiyyətlərinin və uyğun olaraq cavabdehliyinin məhdudluğu; büdcə xərclərinin kassa əməliyyatlarının plan göstəricilərinə uyğunluğuna xarici nəzarətin üstünlük təşkil etməsi və planlaşdırmanın əsaslandırılmış olmasına, büdcə vəsaitlərindən istifadənin nəticələrinə daxili və kənar nəzarət (monitorinq) prosedurlarının zəifliyi; büdcə prosesində qanunverici (nümayəndəli) və icra hakimiyyəti orqanları arasında səlahiyyət bölgüsünün dəqiq olmaması.

Hazırda maliyyə sisteminin təxirə salınmaz məsələlərindən biri büdcə xərclərinin səmərəliliyinin yüksəldilməsindən ibarətdir. Bu məsələnin həllində başlıca çətinlik xərclərin əsassız artırılması yolunda hələlik dəf olunmaz maneələrin yaradıla bilməməsidir. Büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi isə zəruri normativ bazanın olmaması səbəbindən olduqca çətindir.

Büdcə prosesi ilə bağlı ən mühüm problemlərdən biri onun icrasının təşkili və nəticələrinin qiymətləndirilməsidir. Bu ilk növbədə büdcə prosesinin iştirakçıları tərəfindən büdcə vəsitlərindən səmərəli və rasional şəkidə istifadəni nəzərdə tutur.

Büdcə prosesinin növbəti problemi dövlət büdcəsinin vəsaitlərinə düzgün nəzarətin təşkilindən ibarətdir. Büdcə prosesi çərçivəsində dövlətin maliyyə resurslarının idarəolunmasının və nəzarətin səviyyəsi çox da səmərəli deyildir. İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, vəsaitlərin xərclənməsi planlarının tərtibi və xərclənmələrin özünü əhatə edən bütün prosesin şəffaf və ictimaiyyətin nəzarəti altında olması lazımdır.

Bu problemlərin həlli Azərbaycanda büdcə sistemində islahatların aparılmasını, büdcə prosesinin nəzəri-metodoloji əsaslarının təkmilləşdirilməsini tələb edir.

**5. Büdcə prosesində islahatların aparılması zəruriliyi əsaslandırılmışdır.**

Dissertasiya işində qeyd edilir ki, bazar iqtisadiyyatı şəraitində büdcənin rolu artır və o, dövlətin sosial-iqtisadi siyasətini həyata keçirməsi üçün ən başlıca alətlərdən birinə çevrilir. Çox güman ki, Azərbaycanda iqtisadi islahatların gələcək uğuru əhəmiyyətli dərəcədə büdcə sistemindəki dəyişikliklərin hansı istiqamətdə gedəcəyindən, dövlətin büdcə siyasətinin zamanın tələblərinə nə dərəcədə cavab verə biləcəyindən asılı olacaqdır. Bu gün ölkədə həyata keçirilən büdcə sisteminin islahatları ilə əlaqədar büdcə prosesini yeni keyfiyyətdə təşkil etmək perspektivləri və imkanları meydana gəlmişdir və bu sahədə islahatları davam etdirmək üçün cəmiyyətin demokratikləşdirilməsi və sosial yönümlü iqtisadiyyatın vəzifələrinə adekvat olan büdcə sisteminin qurulmasına imkan verən əlavə tədbirlər tələb edir.

Büdcə prosesinin səmərəli təkmilləşməsi üçün əsas diqqət aşağıdakı istiqamətlər üzrə məsələlərin həllinə yönəlməlidir:

- ictimai maliyyənin idarəolunmasının səmərəliliyinin yüksəldilməsi;
- büdcə təsnifatının və büdcə uçotunun təkmilləşməsi, büdcənin gəlir və xərc hissələrinin yenidən strukturlaşdırılması, qüvvədə olan və qəbul edilmiş öhdəliklərin fərqləndirilməsi, büdcə kəsirinin tənzimlənməsi;
- büdcə prosedurlarının təkmilləşdirilməsi;
- büdcə planlaşdırmasının proqram-məqsədli metodlarının tətbiq sahələrinin genişləndirilməsi və ortamüddətli büdcə planlaşdırılmasının təkmilləşdirilməsi,
- nəticələrə yönümlü büdcələşdirməyə keçilməsi;
- dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması;
- büdcə prosesinin şəffaflığının artırılması və ictimai iştirakın gücləndirilməsi.

Azərbaycanda büdcə prosesinin təkmilləşdirilməsi tələb olunan əsas məsələlər içərisində aşağıdakıları da xüsusi qeyd etmək lazımldır:

- dövlət büdcəsinin hazırlanması zamanı büdcə prosesinin iştirakçıları arasında informasiya mübadiləsi sisteminin yaxşılaşdırılması;
- dövlət büdcəsinin layihəsinə baxılması və təsdiqi mərhələlərində Milli Məclis tərəfindən qanunvericilik təşəbbüsü hüququnun reallaşdırılması;
- büdcə prosesi boyunca hakimiyyət orqanlarının, maliyyə orqanlarının və büdcə təşkilatlarının büdcə səlahiyyətlərinin sərhədlərinin müəyyənləşdirilməsi, büdcə səlahiyyətlərinin reallaşdırılmasına nəzarət.

Büdcə prosesinin islahatlarının mühüm istiqamətlərindən biri **ictimai iştirak**ın gücləndirilməsi **və şəffaflığın** artırılmasından ibarət olmalıdır. Dünyanın bir çox ölkələrdə büdcə islahatlarının keçirilməsi zamanı büdcə prosesinin şəffaflığının təmin olunması məsələsinə xüsusi diqqət yetirilir. İctimai maliyyənin idarəolunmasında büdcə şəffaflığının tələbi dünyada büdcə siyasətinin ən vacib nailiyyətlərindən biri hesab olunur.

**6. Büdcə planlaşdırılmasının təkmilləşdirilməsinin prioritet istiqamətləri işlənib hazırlanmışdır.**

Azərbaycanda büdcə sisteminin islahatları sahəsində kifayət qədər uğurların olamasına baxmayaraq hələ də ortamüddətli planlaşdırma mexanizmlərinin və büdcə xərclərinin nəticəliliyinin təmin olunması tam başa çatmamış, büdcə prosesinin əsası kimi tam formalaşa bilməmişdir. Büdcə prosesinin təşkilinin mövcud proseduru dövlət maliyyəsinin idarəolunmasının səmərəliliyinin artırılması və büdcə təşkilatlarının fəaliyyətini ayrılmış maliyyələşdirmənin mənimsənilməsindən ictimai baxımdan əhəmiyyətli və ölçülə bilən son nəticələrə yönəltmək üçün imkanları və stimulları məhdudlaşdırır. Təhlillər göstərir ki, dövlət resurslarının səmərəli istifadəsi probleminin həlli sahəsində göstərilən səylər hələlik arzu olunan nəticələrə tam nail olmağa imkan verməmişdir. Bunun başlıca səbəblərindən biri bu problemlərin həllinə nəticələrə yönümlü büdcələşdirmənin məqsəd və meyarlarının tam sistemi əsasında vahid yanaşmanın olmamasıdır.

Nəticələrə yönümlü büdcələşdirmə metodunun üstünlüklərini reallaşdırmaq üçün ilk növbədə fəaliyyətin ictimai əhəmiyyətli son nəticələrini xarakterizə edən obyektiv göstəricilərin müəyyənləşdirilməsi tələb olunur. Burada söhbət həm büdcə vəsaitlərinin səmərəli bölüşdürülməsindən, həm də büdcə vəsitlərindən səmərəli və nəticəli istifadədən gedir.

Mütəxəssislər hesab edirlər ki, nəticələrə yönümlü büdcələşdirmə şəraitində büdcə təşkilatının fəaliyyəti xidmətlərin xüsusiyyətləri, onların istehsalı prosesinin məzmunu, bunun üçün zəruri şərtlər və resurslar, istehlakçı kontingenti və s. də daxil olmaqla elmi əsaslandırılmış göstəricilər sistemi vasitəsi ilə hərtərəfli izah olunmalı və büdcə təşkilatının real töhfəsini obyektiv əks etdirən aydın, dəqiq, yoxlanıla bilən meyarlar sistemi vasitəsi ilə obyektiv qiymətləndirilməlidir.

Respublikamızda nəticələrə yönümlü büdcələşdirmə kimi alətlərdən istifadənin vahid metodologiyasının tətbiqi məsələsi hələlik formalaşma mərhələsindədir. Bu modelin tətbiqinin prioritet istiqamətlərindən biri büdcə təşkilatları səviyyəsində maliyyə menecmentinin səviyyəsinin yüksəldilməsindən ibarət olmalıdır.

Büdcə planlaşdırması büdcə prosesinin mühüm tərkib hissəsi olub ölkənin inkişafının proqnozlaşdırılması, büdcə siyasətinin məqsədlərinin kəmiyyətcə müəyyənləşdirilməsi və konkretləşdirilməsi, onlara nail olmanın optimal variantının işlənib hazırlanması və seçilməsi, dövlət zəmanətlərinin təmin olunması və büdcə siyasətinin məqsədlərinin reallaşdırılması üçün dövlət hakimiyyət orqanlarını lazım olan resursların müəyyənləşdirilməsi və rasional bölgüsü sahəsindəki fəaliyyətdən ibarətdir.

**7. Büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi istiqamətləri müəyyən olunmuşdur.**

İstənilən dövlətin rəqabət qabiliyyətliliyi yalnız onun uyğun mövcud resurslarının həcmi ilə deyil, hər şeydən əvvəl onlardan səmərəli istifadə bacarığı ilə müəyyən olunur. Bu baxımdan nəticələrə yönümlü büdcələşdirmənin mühüm komponetlərindən biri müxtəlif formalı səmərəlilik göstəricilərinin işlənib hazırlanmasından ibarətdir. Büdcə vəsaitlərinin bölüşdürülməsi ölkənin sosial-iqtisadi inkişaf prioritetlərindən irəli gəlməli və proqram sənədlərində əks olunmuş məqsədlərə nail olunmasını təmin etməlidir. Bunun üçün məqsədli proqramlar real maliyyə resursları ilə balanslaşdırılmalı, praktikada planlaşdırılan nəticələr və fəaliyyət istiqamətləri çərçivəsində büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi sisteminin tətbiqinə keçilməlidir.

Büdcə prosesinin islahatlarının ən mühüm istiqamətlərindən biri maliyyə menecmentinin keyfiyyət meyarları əsasında büdcə planlaşdırmasının və büdcələrin icrasının monitorinqi və qiymətləndirilməsindən ibarətdir.

Büdcə prosesinin səmərəli idarə olunması dövlət maliyyə nəzarətinin yeni strukturunun və mexanizmlərinin, xüsusi halda dövlət resurslarından istifadənin səmərəliliyinin auditinin tətbiq olunmasını tələb edir. Səmərəliliyin auditinin məqsədi maliyyə axınlarının və dövlət mülkiyyətinin idarə olunmasının səmərəliliyinin qiymətləndirilməsindən, həmçinin vergi inzibatçılığının səmərəliliyinin qiymətləndirilməsindən, hakimiyyət qərarlarının reallaşdırılmasının təşkilinin yaxşılaşdırılması imkanlarının aşkar edilməsindən, gələcək hərəkətlər barədə tövsiyyələrin işlənib hazırlanmasından ibarətdir.

Dissertasiya işində Azərbaycanda büdcə prosesinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi məsələsi nəzəri-metodoloji baxımdan ümumiləşdirilmiş və əsaslandırılmışdır. Tədqiqat zamanı büdcə prosesinə təsir edən amillərin müəyyənləşdirilməsi, qruplaşdırılması və təhlili geniş şəkildə tədqiq edilmiş, elmi cəhətdən əsaslandırılmış nəticə və təkliflər işlənib hazırlanmışdır.

**Dissertasiya işinin əsas nəticələri müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışıdr:**


1. İqtisadi inkişaf strategiyası və əsas makroiqtisadi göstəricilər // Dirçəliş jurnalı: №116/117" oktyabr-noyabr, Bakı, 2007 səh. 339-343.
2. Развитие регионов важнейший фактор формирования государственного бюджета // Экономика и финансы, 2009, №6 (159) səh. 53-57.
3. Büdcə-vergi siyasətinin təkmilləşdirilməsi xüsusiyyətləri / "Heydər Əliyevin elmi əsaslara söykənən dövlətçilik konsepsiyası" mövzusunda aspirant və dissertantların elmi konfransının materialları, Bakı, 2009, səh. 148-154.
4. Azərbaycanda dövlət proqramlarının həyata keçirilməsinin konseptual aspektləri / "Heydər Əliyev və Azərbaycanda dövlət idarəçilik məsələləri" mövzusunda aspirant və dissertantların elmi konfransının materialları, Bakı, 2010, səh. 117-123.
5. Maliyyə böhranı: müdrik siyasət, proqmatik düşüncə, qeyri-standart tədbirlər / "Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində antiböhran siyasəti: dünya təcrübəsi və Azərbaycan modeli" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 2010, səh. 356-358.
6. Büdcə prosesinə proqram-məqsədli metodun tədbiqi / "Heydər Əliyevin Azərbaycanda demokratik, hüquqi dövlət qruculuğu strategiyası" mövzusunda aspirant və dissertantların elmi konfransının materialları, Bakı, 2011, səh. 120-126.
7. Пути совершенствования бюджетного процесса в Азербайджане // Государственное управление и государственная служба, 2011, №3, səh. 293-296.
8. Büdcə prosesində şəffaflığın və ictimai iştirakın təmin olunması səmərəli idarəçiliyin vacib şərti kimi / "Səmərəli dövlət idarəçiliyi: zamanın çağırışları" beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 2011, səh. 312-315.
9. Büdcə anlayışı: hüquqi və iqtisadi kateqoriya kimi / "Heydər Əliyevin dövlətçilik irsi və müstəqil Azərbaycanın inkişaf modeli" mövzusunda doktorant və dissertantların elmi konfransının materialları, Bakı, 2012, səh. 219-223.

10. Büdcə prosesində aparılan islahatların konseptual məsələləri // AMEA Elmi əsərlər, 2013, № 1, səh. 180-184.
11. İctimai iştirak və şəffaflıq büdcə prosesinin təşkilinin vacib şərti kimi / "Heydər əliyev müstəqil Azərbaycan Respublikasının banisidir" mövzusunda doktorant və dissertantların elmi konfransının materialları, Bakı, 2013 səh. 229-235.
12. Büdcə planlaşdırılmasının təkmilləşdirilməsi perspektivləri / "Azərbaycanda yüksək texnologiyaların texniki-iqtisadi problemləri" mövzusunda elmi konfransının materialları, 2013, səh. 183-186.
13. Bazar iqtisadiyyatı şəraitində büdcə prosesinin təşkili prinsipləri // İpək Yolu, 2014, №2, səh. 47-52.
14. Azərbaycanda büdcə planlaşdırmasının təkmilləşdirilməsi istiqamətləri // Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri 2015, № 3, səh. 60-68
15. Перспективы развития инновационной деятельности в Азербайджана // Экономика АПК Международный научный журнал, 2015, №8, стр. 83-89.

**Рашад Гусейн оглы Мурадов**

## Теоретико-методологические основы совершенствования бюджетного процесса

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обоснованы актуальность темы диссертации, степень ее изученности, определены цель и задачи, объект и предмет, научная новизна и практическая значимость работы, методологическая и информационная база.

В первой главе диссертации «Теоретико-методологические вопросы бюджетного процесса в условиях рыночной экономики» раскрыта сущность, исследованы принципы организации и модели бюджетного процесса в условиях рыночной экономики, а также обосновано обеспечение общественного участия и прозрачности как важного условия организации бюджетного процесса на современном этапе.

Во второй главе «Анализ современного состояния бюджетного процесса в Азербайджанской Республике» рассмотрена структура бюджетного процесса, изучены этапы и основные проблемы организации бюджетного процесса в Азербайджане.

В третьей главе диссертации «Перспективные направления совершенствования бюджетного процесса в Азербайджане» определены основные направления совершеенствования бюджетного планирования и применение бюджетных методов, направленных на результаты, даны предложения в направлении усовершенствования системы оценки эффективности применения бюджетных средств.

В заключении отражены основные положения, полученные в результате исследования, выдвинуты конкретные предложения и рекомендации.

**Muradov Rashad Huseyn**

**The oretical and Methodological Basis for Improvement of the Budget Process**

## SUMMARY

The dissertation consists of preface, three chapters, conclusion and index of the books and materials used.

In the preface, the topicality of the dissertation and its level of study are substantiated, the goal and the duties, the objective and the matter, scientific innovation and practical importance of the work are specified.

In the first chapter of the dissertation, “Theoretical and Methodological Basis the of Budget Process in market economy”, the essences of the budget process in the market economy have been identified, the principles and models of its establishment have been researched, also provision of participation and transparency have been substantiated as significant parts of the budget process in the modern world.

In the second chapter, “Analysis of Current Situation of the Budget Process in Azerbaijan”, the structure of the budget process have been gone through, the stages and the main problems of establishment of the budget process in Azerbaijan have been studied.

In the third chapter of the dissertation, “The Perspective Directions of the Improvement of the Budget Process in Azerbaijan”, the main directions on the improvement of budget planning and on the application of goal-oriented budget methods have been identified, recommendations about improving the evaluation system of beneficence of the usage of the budget resources have been given.

In the conclusion, the main statements from the research are shown, specific recommendations are given.

**АЗЕРБАЙДЖАНСКАЯ НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ**
**ИНСТИТУТ ЭКОНОМИКИ**

*На правах рукописи*

**МУРАДОВ РАШАД ГУСЕЙН ОГЛЫ**

# ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ СОВЕРШЕНСТВОВАНИЯ БЮДЖЕТНОГО ПРОЦЕССА

**Специальность: 5307.01 - “Экономическая теория”**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации по присуждению ученой степени доктора философии по экономике**

**БАКУ – 2016**